“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır   17 sentyabr 2014-cü il   № 71 (1888)   Qiyməti 25 qəpik


## Rəsmi xronika

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Böyük Britaniyanın keçmiş müdafiə naziri, parlamentin üzvü Liam Foksu qəbul edib.*

*Görüşdə Liam Foks bildirdi ki, coğrafi və geosiyasi baxımdan əlverişli ölkə olan Azərbaycanın getdikcə əhəmiyyəti daha da artır. O, müəllifi olduğu kitabı dövlətimizin başçısına təqdim etdi.*

*Ölkəmizin siyasi və iqtisadi baxımdan uğurla inkişaf etdiyini diqqətə çatdıran Prezident İlham Əliyev Azərbaycanın mövqeyinin daha da möhkəmləndiyini məmnunluqla vurğuladı.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafı, beynəlxalq və regional məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Rusiya Federasiyası Hökuməti sədrinin müavini, Rusiya-Azərbaycan hökumətlərarası komissiyanın həmsədri Dmitri Roqozinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə dinamik şəkildə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı Rusiya-Azərbaycan hökumətlərarası komissiyanın gündəliyində duran məsələlərin geniş şəkildə nəzərdən keçirilməsinin önəmini qeyd etdi. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə Soçidə görüşünü məmnunluqla xatırlayan Prezident İlham Əliyev həmin görüşdə ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı səmərəli müzakirələr aparıldığını vurğuladı.*

* * *

*Sentyabrın 15-də - Bilik Günündə Bakının Xəzər rayonunun Şağan qəsəbəsindəki Füzuli Gözəlov adına 124 nömrəli tam orta məktəb üçün yeni inşa edilən binanın açılışı olub.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*

*Son illərdə dövlətimizin başçısının ölkədə məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi ilə bağlı sərəncam və tapşırıqlarına uyğun olaraq yüzlərlə məktəb binası tikilib və ya təmir olunub. Təhsil ocaqlarının kompüter texnologiyaları ilə təchiz olunması ilə bağlı sərəncam və tapşırıqlara uyğun olaraq ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı gücləndirilib.*

*Heydər Əliyev Fondunun da həyata keçirdiyi layihələr dövlət səviyyəsində icra olunan fəaliyyət proqramına güclü dəstək verib. Fondun "Yeniləşən Azərbaycana yeni məktəb" və "Təhsilə dəstək" layihələri çərçivəsində ölkə üzrə yüzlərlə orta məktəb binası tikilib və bu proses davam etdirilir.*

**AzərTAc-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Ermənistan-Azərbaycan münaqişəsi yalnız beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır

***Sentyabr ayının ilk ongünlüyü həm bütövlükdə bölgəmizin, həm də ölkəmizin ictimai-siyasi həyatında bir sıra əlamətdar hadisələrlə yadda qaldı. Bu hadisələr region ölkələrinin və Azərbaycan Respublikasının təhlükəsizliyi, eyni zamanda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından xarici və ölkə ekspertlərinin diqqətini çəkdi.***



Təbii ki, bu hadisələrin içərisində ən önəmlisi regionun qüdrətli dövlətlərindən və söz sahiblərindən olan qardaş Türkiyənin yeni seçilmiş Prezidenti Rəcəb Tayyib Ərdoğanın xarici ölkələrə səfərləri çərçivəsində ilk rəsmi səfərini Azərbaycana etməsi və Uelsdə NATO Sammitinin keçirilməsi, zirvə görüşündə mühüm Yekun Bəyannaməsinin qəbul edilməsi oldu. Əslində bütün bunlar sanki bir-birinin ardıcıl davamı olduğu kimi, həm də məntiqi yekunu oldu.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında keçirilən görüş zamanı hər iki ölkənin rəhbəri regional təhlükəsizliyin təmin edilməsi üçün lazım gələn məqamlara toxunaraq bir sıra önəmli bəyanatlar səsləndirdilər, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq prinsiplərinə uyğun və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini ən optimal variant kimi dəyərləndirdilər.

Türkiyə dövlətinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində göstərdiyi səylərə görə və Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyi üçün minnətdarlığını bildirən Azərbaycan Prezidenti bir daha vurğuladı ki, Ermənistan-Azərbaycan münaqişəsi yalnız beynəlxalq hüquq əsasında, ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Həmişə Azərbaycanın yanında gördüyümüz qardaş Türkiyənin dövlət başçısı da mətbuat üçün bəyanatında xarici siyasətdə qardaşlığımızın zirvəsi olan ən mühüm məsələnin Dağlıq Qarabağ münaqişəsi olduğunu söylədi: "Bu məsələni yenə də hər zaman olduğu kimi, gündəliyimizin ən mühüm maddəsi olaraq müzakirə etdik, dəyərləndirdik".

Uelsdə keçirilmiş NATO Sammiti və bu zirvə görüşündə qəbul edilmiş mühüm sənəd həm Avropada, həm də Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi baxımından böyük maraq kəsb edirdi.

Sammitin gündəliyinə ilk növbədə Ukrayna hadisələri, yeni təhdidlərə qarşı mübarizə, təhlükəsizliyin təmininə töhfə verən Silahlı Qüvvələrə dəstəyin artırılması, əməkdaşlığın möhkəmləndirilməsi kimi önəmli məsələlər daxil edilmişdi.

NATO-nun zirvə toplantısında Azərbaycan Prezidenti İlham Əliyev də çıxış edərək yüksək tribunadan ölkəmizi narahat edən problemlərdən danışdı. 20 il ərzində Alyansın bir çox fəaliyyət sahəsinə ölkəmizin töhfə verən etibarlı tərəfdaşa çevrildiyini söyləyən dövlətimizin başçısı bildirdi ki, bu gün regionumuzdakı təhlükəsizliyə ən böyük hədə kimi Azərbaycan ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və yeddi ətraf rayonu işğal altında saxlayan Ermənistanın işğalçılıq siyasətidir: "Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti həyata keçirib və bunun nəticəsində 1 milyondan artıq insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Əfsuslar olsun ki, Ermənistan onlara məhəl qoymamaqda davam edir və münaqişə həll olunmamış qalır".

Münaqişənin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü əsasında həll edilməli olduğunu söyləyən Azərbaycan Prezidenti NATO-nun bu məsələ ilə bağlı mövqeyini, əvvəlki sammitlərdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə verdiyi tam dəstəyi yüksək dəyərləndirdiyini bəyan etdi. Ölkəmizin rəhbəri qətiyyətlə inandığını bildirdi ki, NATO-nun beynəlxalq hüququn bu cür mühüm hissəsinə sadiqliyi bundan sonra da davam edəcək.

Uelsdə Ermənistan prezidenti Serj Sarkisyan da çıxış edərək sammitin yekun sənədi qəbul edilərkən Şimali Atlantika Alyansı ölkələrini "sağlam düşüncəyə" dəvət etdi və "Minsk Qrupunun ritorikasından" geri çəkilməməyə çağırdı. Necə deyərlər, Ermənistan rəhbərinin hiyləgər təklifinə dəstək verən tapılmadı. Əslində sammit bir daha göstərdi ki, Serj Sarkisyanın özünün sağlam düşüncəyə ehtiyacı var.

NATO sammitinin ölkəmizin maraqları baxımından əhəmiyyəti həm də ondadır ki, burada qəbul edilmiş Alyansın Yekun Bəyannaməsində birmənalı olaraq Azərbaycanın ərazi bütövlüyü dəstəklənir.

Yekun Bəyannaməsinin 33-cü bəndinə əsasən, Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova və Ukraynanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi müdafiə olunur.

Bəyannamənin 31-ci bəndində isə deyilir ki, Qafqazda, habelə Moldova Respublikasında münaqişələrin dinc yolla həlli beynəlxalq hüquq prinsiplərinə, BMT Nizamnaməsinin və 1975-ci ildə qəbul olunmuş Helsinki Yekun Aktının prinsiplərinə əsaslanmalıdır.

Yəni, sammitin Yekun Bəyannaməsində Ermənistanda tez-tez ciddi-cəhdlə istinad etdikləri və bu qondarma müddəanı Qarabağ ermənilərinin adından dünyaya sırımağa çalışdıqları “millətlərin öz müqəddəratını təyin etməsi hüququ” haqqında bir kəlmə də yoxdur.

NATO sammitinin Yekun Bəyannaməsi Ermənistanda birmənalı qarşılanmayıb və bir çox müstəqil ekspertlər haqlı olaraq sənədi İrəvan rəsmilərinin və şəxsən Serj Sarkisyanın acı məğlubiyyəti kimi dəyərləndirirlər. Həqiqət isə gec-tez öz yerini tutur!

**"Azərbaycan Ordusu"**

## Birinci Azərbaycan beynəlxalq müdafiə sənayesi "ADEX-2014" sərgisi başa çatıb

***"ADEX-2014" adı altında Azərbaycanda keçirilən birinci beynəlxalq müdafiə sənayesi sərgisi öz işini başa çatdırıb.***

Müdafiə Sənayesi Nazirliyinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, üç gün davam edən sərgidə Türkiyə, ABŞ, Fransa, Polşa, İsrail, Belarus, Rusiya, Cənubi Afrika və s. daxil olmaqla dünyanın 34 ölkəsindən 200 şirkət və 22 rəsmi nümayəndə heyəti iştirak edib.

Sərgidə Azərbaycan, Türkiyə, Rusiya, Belarus, Koreya Respublikası, Polşa, İsrail və Ukraynanın səkkiz milli qrupu öz ekspozisiyalarını nümayiş etdirib. Ekspozisiya meydançasının 1000 kvadratmetrlik sahəsini əhatə edən Azərbaycan milli pavilyonu müdafiə sənayesinin yeniliklərini nümayiş etdirib. 2009-cu ildə ilk dəfə qatıldığı beynəlxalq sərgidə 27 adda müdafiə təyinatlı məmulatla təmsil olunan Müdafiə Sənayesi Nazirliyi "ADEX-2014" sərgisində 168 adda məmulat nümayiş etdirib.

Sərgidə müdafiə sənayesi naziri Yavər Camalovun və nazirliyin digər rəsmilərinin sərgiyə qatılan şirkətlərin əksəriyyətinin nümayəndələri ilə ikitərəfli görüşləri olub, qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılıb.

Görüşlərdə ikinci Azərbaycan beynəlxalq müdafiə sənayesi sərgisinə dəvətlər çatdırılıb.

Beynəlxalq nümayəndə heyətlərinin və xarici şirkətlərin "ADEX-2014" sərgisinə böyük maraq göstərməsi Azərbaycanın həm mühüm strateji tərəfdaş, həm də regionda etibarlı əlaqələrin rəmzi kimi yüksək rol və əhəmiyyətini bir daha təsdiq edib.

Sərgini ziyarət edənlər arasında yerli və beynəlxalq mütəxəssislər, hərbi ekspertlər, eləcə də dövlət strukturlarının və şirkətlərin nümayəndələri ilə yanaşı, Müdafiə Sənayesi Nazirliyinin sifarişi əsasında Azərbaycan Texniki Universitetində yaradılmış xüsusi texnika və texnologiya fakültəsinin tələbələri də olublar.

Sərgiyə yerli və xarici kütləvi informasiya vasitələri tərəfindən böyük maraq göstərilib.

Sərgi çərçivəsində "Müasir müharibə metodları və təhlükəsizlik çağırışları" mövzusunda konfrans keçirilib.

## Azərbaycan səfiri İspaniya mətbuatında yayılan məlumatla bağlı açıqlama verib

***İspaniya mətbuatında yayılan məlumata görə, İspaniyanın Bask vilayəti parlamentinin Avropa və xarici əlaqələr komitəsi, qondarma ''Dağlıq Qarabağ Respublikası''nın öz müqəddəratını təyinetmə haqqını dəstəkləyən qanun layihəsinə düzəlişləri təsdiq edib. Sənəddə beynəlxalq ictimaiyyət və xüsusi ilə Avropa İttifaqı münaqişə tərəfləri arasında etimad mühitinin yaradılması üçün effektiv addımların atılmasına çağırılır.***

İspan mətbuatı, bu məlumatı yayarkən, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə də nəzər salıb. Bildirilir ki, Azərbaycan ərazisi olan Dağlıq Qarabağda yaşayan ermənilər 1988-ci ildən Azərbaycandan ayrılaraq müstəqil olmağa və Ermənistana birləşmək cəhdlərinə başlayıblar. Nəticədə on minlərlə insanın həlak olduğu bildirilir. İmzalanmış atəşkəsə baxmayaraq, cəbhə xəttində gərginlik hələ də davam edir.

Bu məsələ ilə bağlı Azərbaycanın İspaniyadakı səfiri Altay Əfəndiyev AzərTAc-a açıqlama verib. O bildirib ki, rəsmi olaraq belə qətnamə yoxdur. İspaniya Xarici İşlər Nazirliyi də bu məsələ ilə bağlı məlumatsız olduğunu deyib. Belə sənədi qəbul etmək istəyən Bask vilayətinin rayonlarından birinin yerli idarəetmə orqanıdır. Qondarma "Dağlıq Qarabağ Respublikası"nın xarici işlər naziri Karen Mirzoyan ilə keçirilmiş görüşdə Bask vilayətinin Donastiya şəhəri ilə Dağlıq Qarabağın Xankəndi şəhərinin qardaşlaşması barədə bask və erməni dillərində sənəd imzalanıb. Sənədin hər iki tərəf üçün ortaq anlaşılan dildə surətinin olmaması onun qeyri-legitimliyinin göstəricisidir.

Altay Əfəndiyev bu məsələyə tam aydınlıq gətiriləcəyini bildirib. Səfir vurğulayıb ki, bütün hallarda məsələ diqqətdən kənarda qalmayacaq.

# Ordu quruculuğunda müasir hərbi təhsil sisteminin önəmi böyükdür

## Müdafiə naziri yeni tədris ili ilə əlaqədar hərbi məktəblərdə olub

***Ümummilli liderimiz Heydər Əliyev ölkəmizdə hakimiyyətdə olduğu bütün dövrlərdə ordu quruculuğunun mühüm istiqamətlərindən biri kimi hərbi təhsilə ciddi önəm verirdi. Hələ Sovet quruluşu dönəmində azərbaycanlı gəncləri hərbi peşələrə ruhlandıran böyük rəhbər uzaqgörənliklə Azərbaycanın gələcəyini düşünərək ötən əsrin 70-ci illərində Xəzərin qoynunda İttifaqda analoqu olmayan ibtidai hərbi məktəbin yaradılmasına nail olmuşdu. Bundan əlavə, ulu öndərin çağırışı ilə yüzlərlə gəncimiz İttifaqın müxtəlif hərbi məktəblərinə oxumağa göndərilmişdi. Hərbçi peşəsinə yiyələnən həmin gənclər müstəqil dövlətimizdə ordu quruculuğuna öz töhfələrini verdilər. Hazırda ali hərbi rütbələrdə və mühüm vəzifələrdə xidmət edən tanınmış hərbçilərimiz haqlı olaraq özlərini Heydər Əliyev Məktəbinin yetirmələri hesab edirlər. Hazırkı dövrümüzdə də Azərbaycanda hərbi təhsil sisteminin müasir tələblər səviyyəsində qurulması ordu rəhbərliyinin diqqət mərkəzindədir.***





Sentyabrın 13-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti yeni tədris ilinə hazırlıq vəziyyətinin yoxlanılması ilə əlaqədar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin məktəbin həyətində ucaldılmış abidəsi önünə gül dəstələri qoyulub, xatirəsinə hörmət və ehtiram ifadə edilib.

Müdafiə nazirinə ali hərbi təhsil müəssisəsinin baş planı göstərilib, qərargah və digər inzibati binalar, həmçinin, məktəbin ərazisində yerləşən infrastruktur haqqında ətraflı məlumat verilib.

General-polkovnik Zakir Həsənov məktəbin yeni təmir olunmuş, müasir avadanlıqlar və stendlərlə təchiz edilmiş tədris korpuslarında, müxtəlif kafedralarda və fənn kabinələrində tədrisin maddi-texniki şəraitinə baxış keçirib, o cümlədən yeməkxana, yataqxana və inzibati binalarda olub.

Nazir Azərbaycan Ali Hərbi Təyyarəçilik və Azərbaycan Ali Hərbi Dənizçilik məktəblərində də mövcud şəraitlə maraqlanıb, gələcəyin zabitləri olacaq gənc kursantların hazırlıq səviyyəsi ilə dərindən maraqlanıb.

Sonra nazirliyin rəhbər heyəti, məktəblərin komandanlığı və müəllim-professor heyətinin iştirakı ilə geniş tərkibdə toplantı keçirilib. Əvvəlcə hərbi təhsil müəssisələrinin kollektivini yeni təhsil dövrünün başlanması münasibətilə təbrik edən general-polkovnik Zakir Həsənov ordu quruculuğunun mühüm sahəsi kimi hərbi təhsilin inkişaf etdirilməsinin vacibliyini qeyd edib.

Yeni tədris ilində məktəbin zabit və müəllim heyətinin qarşısında duran əsas vəzifələri diqqətə çatdıran Müdafiə naziri ulu öndərimizin milli təhsil sisteminin formalaşmasındakı mühüm xidmətlərini və hazırkı dövrdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ölkəmizdə elm və təhsilin inkişafına, eləcə də hərbçi kadrların hazırlığına göstərilən yüksək diqqət və qayğını xüsusi vurğulayıb.

Nazir qeyd edib ki, son vaxtlar ölkəmizdə hərbi təhsil sisteminin müasir dünya standartları səviyyəsində qurulmasına ciddi diqqət yetirilir. "Biz çalışırıq ki, gələcəyin savadlı və peşəkar zabit kadrlarını hazırlamaq üçün müasir dünya təhsil sisteminin səmərəli metod və üsullarından geniş istifadə edək. Müasir texniki tərəqqi əsri bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da ən qabaqcıl metod və təcrübələrdən yararlanmağı, elmi əsaslara önəm verməyi tələb edir. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir silah və texnikalarla təmin edilir, buna görə də peşəkar hərbi kadrların hazırlığı mühüm əhəmiyyət kəsb edir".



Eyni zamanda, məktəbdə qısa müddətdə yüksək səviyyədə aparılan təmir-bərpa işlərindən, maddi-texniki bazanın vəziyyətindən məmnun qalan Müdafiə naziri bütün bunlarda əməyi olan hər kəsə təşəkkür edib.



Hərbi məktəblərdə təhsillə bağlı fikirlərini bölüşən general-polkovnik Zakir Həsənov tədris-maddi bazasının imkanlarından geniş istifadə edilməklə çöl təlim-məşqlərinə xüsusi diqqət yetirilməsinin vacibliyini bildirib. O deyib ki, bizim hərbi məktəbləri bitirən gənc zabitlər elə praktiki hərbi biliklərə yiyələnməlidirlər ki, döyüş zamanı istənilən və zəruri şəraitdə qazandıqları vərdişləri asanlıqla və əminliklə tətbiq etmək bacarığına malik olsunlar.

Sonda Müdafiə naziri məktəbin rəhbərliyinə gələcəyin zabit kadrlarının hazırlıq səviyyəsinin gücləndirilməsi, nizam-intizamın və şəxsi heyətin mənəvi-psixoloji hazırlığının artırılması istiqamətində tapşırıq və tövsiyələrini verib.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrdə irimiqyaslı təlimlər davam edir







**15 sentyabr 2014-cü il.**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin təsdiq etdiyi plana əsasən, sentyabrın 13-dən 20-dək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bütün qoşun növlərinin, o cümlədən Türkiyə Respublikası Silahlı Qüvvələrinin hərbi hissələrinin cəlb olunması ilə mərhələli surətdə irimiqyaslı əməliyyat-taktiki və komanda-qərargah təlimləri davam edir.

Ali Baş Komandanın şəxsi göstərişinə əsasən, təlimlər zamanı birləşmə və hissələrin səfərbərlik tapşırıqlarının yerinə yetirilməsi səviyyəsinin yoxlanılması məqsədilə ehtiyatda olan 10.000 nəfərədək hərbi vəzifəli təlim toplanışına cəlb edilib. Təlimin planına uyğun olaraq döyüş hazırlığı çərçivəsində onlarla silah və hərbi texnikadan istifadə qaydaları üzrə praktiki məşğələlər, döyüş atışları, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə tədbirlər keçirilib.

**16 sentyabr 2014-cü il.**

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə təlim bölgəsində müşavirə keçirilib.

Müşavirədə təlimlərə cəlb edilən birləşmə və hərbi hissələrin komandir və rəis heyətinin məruzələri dinlənilib.

Müşavirədə çıxış edən Müdafiə naziri təlimlərin əhəmiyyətindən və qarşıda duran vəzifələrdən danışaraq müvafiq tapşırıq və göstərişlər verib.

* * *

Sentyabrın 16-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov təlimlərə cəlb edilən ehtiyatdan çağırılmış hərbi vəzifəlilərlə görüşüb.

Müdafiə naziri ehtiyatdan çağırılan şəxsi heyətə təlim toplanışında mütəşəkkil qaydada iştirak etdiklərinə, bir an belə tərəddüd etmədən Vətənin müdafiəsi üçün şərəf və vicdanla yenidən xidmətə cəlb olunmağa hazır olduqlarına görə təşəkkür edib.

Nazir bilidirib ki, onlar bu təlimlərdə iştirak etməklə döyüş qabiliyyətlərini, hərbi ixtisaslarını və təcrübələrini təkmilləşdirmək, silahlanmada olan yeni, müasir və modernləşdirilmiş silah və hərbi texnikanın nümunələri ilə yaxından tanış olmaq, onun düzgün istifadəsi və istismarı qaydalarını bilmək imkanı əldə ediblər.





Müdafiə naziri keçirilən təlimlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tələb və tapşıpıqlarına əsasən yüksək səviyyədə təşkil edilərək keçirildiyini bir daha diqqətə çatdırıb.

Sonra Müdafiə naziri şəxsi heyətin vəziyyəti, yeməkxana, yataq, tibb xidmətinin təşkili, mobil hamam-camaşırxana və digər məişət şəraiti ilə tanış olub, eyni zamanda onların təlimlərdə iştirakı, silah və hərbi texnikadan istifadə etmə bacarıqları ilə maraqlanaraq döyüş atışlarının yerinə yetirilməsi, mənəvi-psixoloji hazırlıq və döyüş uzlaşması üzrə məsələlərə diqqətin daha da artırılmasını xüsusi vurğulayıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti,**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

*Hərbi məktəblərimizdə yeni tədris ili başlandı*

# "Mən, Azərbaycan Respublikasının vətəndaşı..."







***...Bir bayatıda deyildiyi kimi, gün var min aya dəyər. Həmin gün həyatın axarını dəyişirsə. Həmin gün istəyin, arzunun Dan Ulduzuna dönürsə. Həmin gün adiliyə sığışmırsa. Həmin gün cəmiyyət üçün gərəkli olacaqsa.***

Peşəkarlığı arzu edilən səviyyədə olan zabit tabeliyindəki əsgərin də döyüş hazırlığına cavabdehlik daşıyır. Ali Baş Komandanımız da, Müdafiə naziri də zabitlərdən məhz bunu tələb edir. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyəti yeni tədris ilinə bu amalla başlayır. İlk tədbir birinci kursa daxil olan kursantların andiçmə mərasimidir...

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olan kursantların təntənəli andiçmə mərasiminin keçirilməsi üçün məktəbin böyük stadionu da darlıq eləyir elə bil. And içəcək kursantlar da, tədbirdə iştirak edən valideynlər də eyni həyəcanı yaşamaqdadır. Tədbirə tələsənlərin sırası sıxlaşmaqdadır. Aralarında ana da var, nənə də, baba da.

Ciddi tələblər uşaqların sevincini məhdudlaşdıra biləcəkmi? Adamların sırasında duruş gətirə bilməyən 5 yaşlı uşağın çılğın baxışları diqqətimi çəkir. Bu baxışları bir arzuya bənzətmək istərdim. Öyrənirik ki, atası hərbçidi. Hərbi mundirə marağı da, sevgisi də təsadüfi deyilmiş.

Bir ananın kövrək baxışları nizami sıra ilə düzülmüş kursantların üzündən üzülmür. Bu baxışlar oğlunu axtarır, oğlunu hərbi mundirdə tanıya bilmir. Mənə elə gəlir ki, birdən-birə gözlərinin işığı artır. Oğlunu tanıyır və qürurlanır. Hərbi mundirin oğluna gözəl yaraşması ona qədərsiz könül xoşluğu verir. Kəndə qayıdınca qonşulara oğlundan danışacaq, onu hərbi mundirdə tanımağın çətin olduğunu deyəcək. Onu da deyəcək ki... Yox, onu deməyəcək. Onu oğlunun hərbi xidməti deyəcək...

Ümummilli liderimiz Heydər Əliyevin və şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilir.

Hərbi orkestrin sədalarını tədbirin üverturası bilirəm. Azərbaycan Respublikasının Dövlət himni toplaşanların ürəyini coşdurur...

Kursantlar hərbi and içir: "Mən, Azərbaycan Respublikasının vətəndaşı..."

Hərbi and kəlmə-kəlmə göy üzünə sığal çəkir. Toplaşanlar bu kəlmələrin qürur çalarını aydınlığı ilə duyur, hiss edir, görür, qürurlanır. İnanır ki, bu gün and içən kursant zaman anlamında sabah Vətənimizin sərhədlərini, dövlətçiliyimizi göz bəbəyi kimi qoruyacaq əsgərlərin komandiri olacaq. Həm də vətənpərvər komandiri, xalqını, dövlətçiliyimizi varlığı ilə sevən komandiri!..

Vətən naminə şəhidliyə belə hazır olmaq mənəvi kamilliyin təsdiqidir, şübhəsiz. And içən kursantlar bunu da bildirir...

Çıxışını ümummilli liderimiz Heydər Əliyevin "Möhkəm, daimi sülh üçün müstəqil dövlətin, ölkənin güclü ordusu olmalıdır. Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir" fikrinə istinadən başlayan polkovnik-leytenant Mikayıl Hüseynov bildirir ki, Silahlı Qüvvələrimizdə aparılan islahatlar onun qüdrətini daha da artırır. Hərbi təhsil ölkənin müdafiə gücünün bünövrəsidir. Dövlətin müstəqilliyinin qorunmasının əsas təminatçısı güclü və çevik ordudur. Ordu quruculuğunun başlıca istiqamətlərindən biri kadr hazırlığıdır. Yüksək hərbi biliyə malik kadr olmasa, ordu quruculuğu kimi ciddi bir vəzifəni həyata keçirmək mümkün deyil. Məhz bu baxımdan kadr hazırlığı ordu quruculuğu prosesinin obyektiv tələblərindən irəli gəlir. Məktəbimizin şəxsi heyəti Ali Baş Komandanın, Müdafiə nazirinin əmr və göstərişlərini yüksək səviyyədə yerinə yetirməklə ordu quruculuğu prosesində yaxından iştirak edir...



Zabit M.Hüseynov çıxışının sonunda kursantlara xitabən deyir ki, siz Vətənimizə, dövlətçiliyimizə sədaqətli olmağa, nümunəvi kursant kimi zabit peşəsini mükəmməl mənimsəməyə and içdiniz. Əminəm ki, hər biriniz içdiyiniz anda sadiq qalacaq, seçdiyiniz peşənin sirlərinə dərindən yiyələnəcəksiniz.

Kursantlar adından Əfləddin Fərzəliyev çıxış edir.

- Bu gündən etibarən Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin sıralarına daxil oluruq, - deyə kursant bildirir. - Sizi əmin edirəm ki, hər birimiz son nəfəsimizə kimi Vətənimizin keşiyində dayanacağıq. Bizi vətənpərvər bir gənc kimi böyütdüklərinə görə kursant yoldaşlarımın adından valideynlərimizə minnətdarlığımı bildirirəm. İstər təhsil illərində, istərsə də zabit kimi onlara həmişə başucalığı gətirəcək, onların qüruru olacağıq. İşğal altında qalan torpaqlarımızın azad edilməsi üçün son damla qanımıza kimi döyüşməyə hazırıq!

Kursant atası Eldar Məmmədov deyir ki, Vətən hər birimiz üçün anadır. Mən oğlumla qürur duyuram. O, hərbçi olmaq istədiyini deyəndə, çox sevindim. İnanıram ki, hərbi and içən kursantlar bizim də, zabitlərin də, müəllimlərin də ehtiramını qazanacaqlar. Məktəb rəhbərliyinin, zabitlərin hər bir əmr və göstərişini tam məsuliyyəti ilə yerinə yetirəcəklər.

Kursant atasının inamı toplaşanların inamına qarışır: kursant qürur ünvanıdır!..

... Tədbir iştirakçılarının ürəyini şirin bir kövrəklik bürüyür...

Məktəbin rəisi polkovnik Füzuli Salahov kursantları təbrik edir, onlara Vətən naminə nümunəvi hərdi xidmət arzulayır.

... Hərbi orkestrin müşayiəti ilə rəsmi keçid toplaşanların duyumunu riqqətə gətirir; mətin yeriş ordumuzun gücünün, qüdrətinin təntənəsidir elə bil. Baxanların ürəyi dağa dönür.

Orta təhsilini Neftçalada alan İslam Abdullayev qəbul imtahanında 556 bal toplayıb. Bu, məktəb üzrə ən yüksək nəticədir. Onunla kəlmələşirəm:

- Sonuncu sinifdə oxuyanda hərbçi olmağı qərara aldım, - deyir İslam. - Bilmirəm, müəllimlərimin, valideynlərimin söhbətlərinin təsiriydi, oxuduğum kitablarınmı, baxdığım filmlərinmi, Vətənə bu şəkildə xidmət eləmək istəyirdim. İndi kursantam. İlk təlimlərdə mənim də bəzi çətinliklərim oldu. Mən də bilirəm ki, dözümsüzdən hərbçi olmaz. Qarşılaşdığın çətinlikləri dözümünlə, Vətənə sevginlə əritməlisən.

... Tədbir sona çatır. Atasının əlindən yapışan 4-5 yaşlı uşağın sözlərinə sarı boylanıram: "Ata, mən də qardaşım kimi bu paltardan geyinə bilərəmmi?"...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Nəriman DƏMİROVUNDUR**

# "Zabit peşəsi cəmiyyətdə ən hörmətli peşədir"



***Sentyabrın 15-də tədris ilinin başlanması və Bilik Günü münasibəti ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə də tədbir keçirildi. Tədris ilinin ilk günü olduğuna görə məktəbin ətrafına nə qədər adam toplaşmışdı. Hamı bir-birini təbrik edir, gənc kursantların valideynlərinə göz aydınlığı verirdi. Bir anlıq insanların gözlərinə diqqət etdim. Sanki o gözlərdə bu peşə sahiblərinə sevgi vardı. Həqiqətən, müasir Azərbaycan cəmiyyətində ən hörmətli peşələr sırasında hərbçi peşəsinin öz yeri vardır. Bir daha yəqin etdim ki, ulu öndərimiz Heydər Əliyev hələ keçmiş İttifaq zamanında respublikamızda hərbi təhsil ocağının bünövrəsini yaratmaqla müdriklik və uzaqgörənlik nümayiş etdirib. Ümummilli lider hər kəsə zabit peşəsinə hörmət etməyi və hərbi formada olan şəxslərə ehtiram göstərməyi təlqin edirdi. "Hamı bilməlidir ki, bütün peşələrdən ən şərəflisi zabit peşəsidir, çünki bu peşənin sahibləri ən müqəddəs vəzifəni - dövlətimizi və torpağımızı qorumağı qarşılarına məqsəd qoymuşlar".***

Tədbirin keçirildiyi meydanda gənc kursantların ata-anaları, qohum-qardaşları görünür. Nəhayət, hər kəsin intizarla gözlədikləri an gəlib çatır. İlk dəfə əyninə hərbi forma geyinmiş gələcəyin zabitləri sıra meydanında nizamla düzülüblər. Üçrəngli bayrağımız fəxri qarovulun müşayiəti ilə sıra meydanına gətirilir. Dövlət himninin səslənməsi ilə tədbirin rəsmi hissəsi başlayır. Öncə mərasim iştirakçıları Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş döyüşçülərin və ulu öndər Heydər Əliyevin xatirəsini bir dəqiqəlik sükutla yad edirlər.

Gənc kursantlar Şərəf andını qəbul etdikdən sonra Hərbi Lisey rəisi general-mayor Mirzə Almasov onları təbrik etdi və şərəfli yolda gələcəyin zabitlərinə uğurlar arzuladı.



Çıxış etmək üçün söz Hərbi Liseyin müəllimi Gülsəda Quluqızına verildi.

- Bu gün məktəbimizin həyatında əlamətdar gündür, - deyə o, bildirdi. - Hərbçi peşəsini özünə ömür yolu seçmiş gənc kursantlar dövlətçiliyimizin sədaqətli müdafiəçiləri olacaqlarına and içdilər. Bu münasibətlə sabahımızın zabiti olacaq hər bir kursantı səmimi qəlbdən təbrik edir, Vətənimiz Azərbaycana layiqli övlad olmağı, Vətənin keşiyində daim cəsarətlə dayanmağı arzu edirəm.

Liseyin müəllimi çıxışında vurğuladı ki, ölkəmizdə elmin və təhsilin yüksəlişi, o cümlədən, yüksək peşəkarlığa malik zabit kadrlarının hazırlanması Azərbaycan xalqı qarşısında misilsiz xidmətləri olan ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün də ordu quruculuğu onun siyasi kursunun yetirməsi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra gənc kursantların valideynləri adından Əli Rüstəmov çıxış edərək əlamətdar hadisə münasibətilə hamını təbrik etdi.

Valideyn öz çıxışını gənclərimizə xeyir-duası ilə bitirdi və əmin olduğunu bildirdi ki, bu gündən əyninə hərbi forma geyinmiş kursantlar gələcəkdə Silahlı Qüvvələrimizin hərbi qüdrətinin güclənməsinə öz töhfələrini verəcəklər.

Axırda kursantlar təntənəli marşla tribunanın qarşısından keçdilər.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Çin 2024-cü ildə 28,2 trilyon dollarlıq iqtisadiyyatı ilə ABŞ-ı üstələyəcək



Çinin 2024-cü ilədək dünyanın ən böyük iqtisadiyyatına malik olacağı proqnozlaşdırılır. "IHS Economics"in hesabatına görə, qarşıdakı 10 il ərzində Çin istehlakdakı artımı balanslaşdıraraq yerli iqtisadiyyatın quruluşunu yenidən formalaşdıracaq. Hesabatda istehlak xərcləməsindəki artımın Çinin nominal milli gəlirinin hazırkı 10 trilyon dollarlıq səviyyədən 2024-cü ildə 28,25 trilyon dollara yüksəldiləcəyi gözlənilir. Bu göstəricinin həmin vaxt ABŞ üçün 27,31 trilyon dollar olacağı proqnozlaşdırılır.

## Poroşenko: "Ukraynadakı Rusiya qoşunlarının 70 faizi ölkəni tərk edib"



Ukrayna ərazisindəki Rusiya qoşunlarının 70 faizi ölkədən çıxarılıb. Bunu Ukrayna Prezidenti Petro Poroşenko Nazirlər Kabinetinin iclasında bildirib. O deyib ki, Rusiya qoşunlarının böyük hissəsi sərhədin Rusiya tərəfinə geri çəkilib: "Kəşfiyyatın son məlumatlarına əsasən, Rusiya qoşunlarının 70 faizi ölkədən çıxarılıb". P.Poroşenko hesab edir ki, bu fakt sülh prosesinin yaxşı perspektivə malik olduğunu düşünməyə əsas verir. O, Minsk razılaşmalarının Ukrayna ərazilərinin qoparılmasını və yaxud federallaşmanı nəzərdə tutmadığını vurğulayıb: "İmzalanan protokolda hansısa federasiyadan, ayrılmadan söhbət getmir və gedə bilməz".

## Qazaxıstandan İran körfəzinə çəkilən dəmir yolunun açılışı noyabrda olacaq



Qazaxıstan - Türkmənistan - İran - İran körfəzi dəmir yolunun açılışı 2014-cü ilin noyabr ayında olacaq. Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev bu barədə mətbuat konfransında məlumat verib.

N.Nazarbayev deyib: "Qazaxıstan - Türkmənistan - İran - İran körfəzi dəmir yolu istifadəyə veriləndən sonra bizim ərzaq buğdası satışı imkanlarımız beş qat artacaq. Yəni, indi 500 min ton ərzaq buğdası satırıqsa, gələcəkdə bu göstərici 2,5 milyon tona çatacaqdır. Dəmir yolu 10 milyon ton yük daşmağa imkan verəcəkdir. Bu, çox vacibdir".

Prezident vurğulayıb ki, İran bu yol vasitəsilə Rusiyanın və Çinin ucsuz-bucaqsız ərazilərinə, Qazaxıstan isə İran körfəzindəki bütün dövlətlərə çıxış əldə edəcəkdir.

## İraqın yeni hökuməti formalaşıb



İraqın yeni hökumətinin andiçmə mərasimi keçirilib. Ölkə parlamenti Baş nazir Heydər əl-Abadinin rəhbərliyi altında yenicə formalaşmış Nazirlər Kabinetinin tərkibini təsdiq edib. Sünni məzhəbli Saleh əl-Mutlak və kürd Xoşiyar Zebari Baş nazirin müavinləri seçiliblər. Müdafiə Nazirliyinin və Daxili İşlər Nazirliyinin rəhbərlərinin adları hələlik məlum deyil. Parlament bu vəzifələrə namizədləri ayrıca gözdən keçirəcək.

Heydər əl-Abadi Baş nazir vəzifəsində fəaliyyətə başlaması ilə əlaqədar çıxışında bildirib ki, İraqın yeni hökumətinin ən vacib vəzifəsi radikal "İslam dövləti" qruplaşmasına qarşı mübarizə aparmaq olacaq.

## Almaniyada kimyəvi zavodda güclü partlayış olub



Almaniyanın Bremen şəhərində yerləşən iri kimyəvi zavodun ərazisində güclü partlayış baş verib. Bu barədə Almaniyanın "Bild" qəzeti məlumat yayıb. Partlayış nəticəsində zavod binasının uçduğu bildirilir. Məlumata görə, partlayış baş verən an şirkət əməkdaşlarından ərazidə heç kim olmayıb.

Nəşr qeyd edir ki, partlayış nəticəsində yaxınlıqdakı binalara ziyan dəyib. Şəhər sakinlərinə evlərini tərk etməmək və qapı-pəncərələri bağlamaq tövsiyə olunub. İnsident nəticəsində ölən və ya xəsarət alanlar barədə məlumat yoxdur. Partlayışın səbəbləri də hələlik məlum deyil.

## Bolqarıstanda daşqınlar nəticəsində 80 yaşayış məntəqəsinə ziyan dəyib



Bolqarıstanda son günlərdə baş vermiş daşqınlar nəticəsində 80 yaşayış məntəqəsinə ziyan dəyib, elektrik enerjisinin təchizatı dayandırılıb. Daşqınlar nəticəsində Burqas şəhərinə 1,5 milyon lev məbləğində ziyan dəyib. Bolqarıstanın Xarmanli, Simeonovqrad, Berkovitsa, Raynovo bölgələrində vəziyyət ağır olaraq qalmaqda davam edir.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

# XXVII dərs

*(İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)*

**Suallar:**

**1. XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası; ölkədaxili siyasi-iqtisadi vəziyyət; dövlət quruluşu və hərbi qüvvələr.**

**2. Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması.**

**3. Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər.**

**4. XVIII əsrdə Azərbaycanda daxili siyasi vəziyyət, rus-İran müharibələri.**

**5. XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi.**

**Mövzu:** XVI-XIX əsrin əvvəllərində Azərbaycanda baş vermiş hadisələr. Azərbaycan Səfəvilər dövləti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

### *XVI əsrin başlanğıcında Azərbaycan ərazisinin tarixi coğrafiyası; ölkədaxili siyasi-iqtisadi vəziyyət; dövlət quruluşu və hərbi qüvvələr*

XV əsrin sonları - XVI əsrin başlanğıcına doğru Azərbaycanda bir sıra müstəqil feodal dövlətləri yaranmışdı ki, onlardan ən mühümü Şirvanşahlar, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri idi. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin ərazisi Cənubi Azərbaycanı və Qarabağı, şimalda Kür çayına qədər Gəncə və Şəmkiri əhatə edirdi. Hər üç dövlətin quruluşu eyni olub, bir-birindən əsaslı şəkildə fərqlənmirdi. Fərq yalnız onda idi ki, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri aparatında Azərbaycan tayfalarının hərbi-feodal əyanları - baharlı və bayandırlı tayfaları əsas rol oynayırdılar. Hər iki sülalənin dövlət başçıları “padşah” titulu daşıyırdılar. Şirvanda isə dövlət hakimiyyəti feodal əyanlarına mənsub idi. Şirvan dövlətinin başçıları özlərini “şah” adlandırırdılar.

Hakim sülalənin üzvlərindən və ya məşhur əmirlərindən təyin olunan ordunun baş komandanı Əmir - ül Üməra (əmirlər əmiri) titulunu daşıyır, padşahdan sonra birinci şəxs sayılırdı. Hərbi qüvvələr padşahın xüsusi və vilayət canişini qoşunlarından ibarət idi. Hər ikisi Azərbaycanın feodal qoşun hissəsini təşkil edirdi. Komanda heyəti feodal əyanlarından seçilirdi. Orduda ali rütbəli şəxs əmir adlanırdı. Vilayətlərdə əmirlərin sırasından böyük əmirlər ayrılırdı. Bunların da ordunun rəhbər heyətində xüsusi yeri vardı. Kiçik rəislər qibtaul adlanırdılar. Ordunun sıravi tərkibi zireh geymiş süvarilərdən - puşandarlar, tirkətbən - oxatanlar, xidmətçilərdən ibarət idi. Komanda heyəti dəmir geyimlə yanaşı zəif ipək paltar da geyirdi. Ağqoyunlu əsgərləri başlarına şiş papaq qoyardılar. Qoşunun tərkibi müxtəlif idi: burada çəkməçi, tacir, tibb işçisi və s. peşə sahibləri vardı.

### *Səfəvilər sülaləsi, Azərbaycan Səfəvilər dövlətinin yaranması*

Feodal pərakəndəliyi ölkənin ayrı-ayrı hissələri arasında təsərrüfat əlaqələrinin möhkəmlənməsinə mane olur və məhsuldar qüvvələrin inkişafını ləngidirdi. Ağqoyunlu şahzadələri arasında ara müharibələri, feodal hakimlərin özbaşınalığının artması kənd təsərrüfatı və sənətkarlığın tənəzzülünə səbəb oldu, şəhər və kənd əməkçilərinin vəziyyətini ağırlaşdırdı. Feodal pərakəndəliyi həmçinin yadellilərə qarşı mübarizədə xalqın birliyinin yaranmasına mane olurdu. Odur ki, Azərbaycanı siyasi cəhətdən birləşdirmək zərurəti artıq meydana çıxmışdı. Bu birləşmə Azərbaycan əhalisinin geniş kütlələrinin mənafeyinə uyğun gəlirdi. Yalnız belə bir dövlət yaratmaqla feodal pərakəndəliyini aradan qaldırıb Azərbaycanın müstəqilliyini qorumaq olardı. Bu vəzifəni isə XIII yüzilliyin sonunda Azərbaycanın Ərdəbil şəhərində yaşamış Səfəvilər sülaləsinin yaratdığı Səfəvilər hakimiyyəti həyata keçirməyə başladı. Rəvayətə görə, Səfəvilərin banisi Şeyx Səfiəddin yeddinci şiə imamı olan Musa Kazımın 21-ci nəslindən törəmədir, bu da bilavasitə Həzrət Əlinin və peyğəmbərin qızı Fatimənin 26-cı nəslidir. Səfiəddinin ata-babası Ərdəbildə və onun ətrafında yaşayırdılar. Bütün Ərdəbil əhli şeyxin müridləri hesab olunur və onun dediklərinə əməl edirdi. Getdikcə Ərdəbil təriqətini təkcə Azərbaycanda deyil, Rumda, Farsda, İraqda, Gilanda, Talışda yayan səfəvi şeyxlərinin çoxlu müridləri və ardıcılları toplandı. Beləliklə, Ərdəbil feodal hakimiyyətinin əhəmiyyəti xeyli dərəcədə artdı. Səfəvilər dünyəvi və ruhani işləri öz əllərində birləşdirdilər. Onlar xalqın ədalətli hökmdar haqqında baş tutmayan arzusunu təcəssüm etdirən şiəliyi Azərbaycanda, İranda, Kiçik Asiya və Şərqin başqa yerlərində sürətlə yayır və ideoloji təbliğat vasitəsinə çevirirdilər. Səfəvi şeyxləri təbliğ edirdilər ki, şəriətin nəzərdə tutmadığı vergi və mükəlləfiyyətlərin ləğv olunması üçün hakimiyyət başında dayanan sünnü hökmdarların ağalığına son qoymaq lazımdır. Şiəlik təriqətindən öz məqsədləri üçün istifadə etməyə çalışan Səfəvilər müxtəlif vədlərlə xalq kütlələrini öz tərəflərinə çəkir və hakimiyyət uğrunda mübarizəni genişləndirirdilər. Bu mübarizə Şeyx Səfiəddindən sonra sülalənin görkəmli başçıları, o cümlədən Şah İsmayılın (1487-1524) dövründə kəskin xarakter aldı. Beləliklə, Səfəvilərin Ərdəbil hakimliyindən sonrakı dövrünü onların Azərbaycanın siyasi həyatında mühüm rol oynaması, bütün Azərbaycanda hakimiyyətin yaranması və möhkəmlənməsi dövrü kimi qiymətləndirmək olardı. Məhz Səfəvilərin Ərdəbil hakimiyyəti mərkəzləşmiş Azərbaycan dövlətinin yaradılması yolunda başlanğıc rolunu oynamışdır. XV əsrin ortalarından etibarən Səfəvilər daha fəal siyasət yeritməyə başladılar. Onlar uğurlu hərbi yürüşlər keçirərək böyük qənimətlər əldə edir və öz mövqelərini möhkəmləndirirdilər. Əsrin II yarısında artıq Muğanın bir hissəsi, Qarabağ və Azərbaycanın Talış dağlarına qədər olan şərq torpaqları onların təsiri altına düşmüşdü. Həm də Səfəvilərin ayrı-ayrı nümayəndələri tarix səhnəsində daha ruhani başçısı kimi yox, siyasi xadim kimi çıxış edirdilər.

Səfəvilərin hakimiyyəti Şah İsmayılın dövründə daha da gücləndi. Onlar kütlələri öz tərəflərinə cəlb etmək üçün ədalətli qərarlar vəd edirdilər. Təkcə Ərzincan səfəri ərzində İsmayılın bayrağı altına müxtəlif tayfalardan 7 min qazi toplaşdı. Bu müşavirədə səfəvilər birinci zərbəni Şirvanşahlara vurmaq qərarına gəldilər. Çünki əks halda, yəni Təbrizə hücum etməklə dərhal üç düşmənlə - Ağqoyunlu Əlvənd Mirzə və Muradla, habelə onları müdafiə edən Şirvanşah Fərrux Yasarla üzləşməli olardılar. Beləliklə, 1500-cü ilin payızında qızılbaşlar (səfəvilər) Kürü keçib Şirvan ərazisinə daxil oldular. Şirvanın paytaxtı tutuldu, Fərrux Yasarın başı kəsildi, qızılbaşlar Şirvanşahların böyük sərvətini ələ keçirdilər. Sonra İsmayıl Bakı üzərinə yeriyərək onu ələ keçirdi. Ağqoyunlu Əlvənd Mirzə bundan bərk narahat oldu. O, İsmayılın cənuba doğru hərəkətinə nə qədər mane olmağa çalışsa da, buna müyəssər olmadı. 1501-ci ilin ortalarında Naxçıvan ərazisində onlar arasında həlledici döyüş baş verdi. Bu döyüşdə İsmayıl əsl sərkərdəlik məharəti göstərərək qələbə qazandı. Həmin qələbədən sonra, 1501-ci ilin payızında İsmayıl təntənə ilə Təbrizə daxil oldu və özünü şah elan etdi. Beləliklə, paytaxt Təbriz olmaqla Səfəvilər dövlətinin əsası qoyuldu. Azərbaycan Səfəvilər dövlətinin özəyi idi. Bu dövlətdə əhalinin etnik və mədəni birliyə malik çoxluğunu Azərbaycan türkləri təşkil edirdi. Azərbaycan etnik ünsürü dövlətin siyasi həyatında rəhbər rol oynayırdı. XVI əsrin ortalarına yaxın dövlətin 74 əmirindən 69-u Azərbaycan türkü idi. Ordu da əsasən Azərbaycan tayfalarından təşkil olunurdu. Şahın sarayında, qoşun içərisində və qismən diplomatik yazışmalarda Azərbaycan türkcəsindən istifadə olunurdu.

Səfəvilər dövlətinin yaranması Azərbaycan tarixində mühüm hadisə idi. Bu ölkənin təsərrüfat həyatı üçün şərait yaratdı, yadellilərə qarşı xalqın mübarizəsini asanlaşdırdı.

Şah İsmayılın qələbələri çoxlarını narahat edirdi. Bəzi feodallar, hakimlər siyasi həyatda müstəqillik və hakimiyyət iddiası ilə çıxış edirdilər. Səfəvilər dövləti üçün təhlükəli düşmən - Murad padşah Həmədanda qoşun qalıqlarını toplayaraq qızılbaşlara zərbə endirməyə çalışırdı. Belə olduqda İsmayıl 12 min nəfərlik qoşunla Təbrizdən çıxaraq, Qızılüzən çayını keçib Həmədan yaxınlığına gəldi. 1503-cü il iyunun 21-də baş verən döyüş nəticəsində Muradın qoşunları məğlubiyyətə uğradı. Murad Şiraza qaçdı. İsmayıl onu təqib edərək İranın içərilərinə doğru irəlilədi və müqavimətsiz Şirazı ələ keçirdi. Beləliklə, Ağqoyunlu dövlətinin varlığına son qoyuldu. İsmayıl Əlvənd üzərində qələbə ilə İran və Əcəm İraqının xeyli hissəsinə yiyələndi.

### *Səfəvilər dövləti və Osmanlı Türkiyəsi arasında münasibətlər*

Səfəvilər dövlətinin meydana çıxması və onun qüdrətinin artması Osmanlı Türkiyəsini narahat edirdi. Osmanlı İmperiyası Səfəvilərin düşməni olan Ağqoyunlu padşahına kömək edir, yeni dövlətin möhkəmlənməsinə mane olmağa çalışırdı. Lakin Türkiyə sultanı II Bəyazid Şah İsmayıla qarşı müharibəyə başlamağa cəsarət etməyərək, 1504-cü ildə bu dövləti tanımağa məcbur oldu. Bununla belə, Osmanlı feodalları Azərbaycanı və qonşu ölkələri ələ keçirmək iddialarından əl çəkmirdilər. Səfəvilər isə Gürcüstanı və Türkiyənin bir sıra şərq torpaqlarını özlərinə tabe etmək niyyətində idilər.

Şah İsmayılın ölümündən sonra onun oğlu I Təhmasib taxta çıxdı (1524-1576).

Süleyman Qanuninin (1520-1566) vaxtında Osmanlı ali təbəqəsi öz nüfuz dairələrini şərq istiqamətində genişləndirmək cəhdlərindən əl çəkmirdi. Odur ki, qarşılıqlı hücumlar ara vermir, illərlə davam edirdi. Nəhayət, 1555-ci il mayın 29-da Amasiyada Səfəvi-Osmanlı müharibəsinin birinci mərhələsini başa çatdıran sülh müqaviləsi imzalandı. Bu sülhə görə, Qərbi Gürcüstan - İmeretiya, Menqreliya və Quriya Türkiyənin, Gürcüstanın şərq vilayətləri - Mesxi, Kartlı, Kaxetiya və indiki Ermənistan Səfəvilərin ixtiyarına keçdi. Lakin bu sülh uzun sürmədi. XVI əsrin 70-ci illərindən etibarən Osmanlı işğalının yeni dövrü başlandı. Bu vaxt Səfəvilər dövlətinin başında Məhəmməd Xudabəndə (1578-1587), Osmanlı dövlətinin başında isə Sultan II Murad (1574-1595) dururdu.

Beləliklə, 1586-1589-cu illərdə bütün Azərbaycan Sultan II Muradın ordusu tərəfindən zəbt olundu. Səfəvilər ərazilərinin qalan hissəsini itirməmək üçün sülhə razılaşdılar. 1590-cı ildə imzalanan İstanbul sülh müqaviləsinə görə, Azərbaycandan əlavə indiki Ermənistan, Gürcüstan, habelə İranın qərb vilayətləri Türkiyəyə verildi.

Səfəvilər dövləti tezliklə süquta uğradı.

Osmanlı ilə müharibənin davam etdiyi illərdə İranda hakimiyyət dəyişikliyi oldu. I Şah Abbas taxt-taca sahib oldu (1587-1629). O da Azərbaycana qarşı planlarını gizlətmirdi. 1607-ci ildən etibarən hərbi əməliyyatlara başlayan I Şah Abbas Şirvana hücum etdi. O, zəbt etdiyi ərazilərdə güclü farslaşdırma siyasəti yeridir, amansız bir idarə üsulu yaradırdı.

### *XVIII əsrdə Azərbaycanda daxili siyasi vəziyyət, rus-İran müharibələri*

Səfəvilər dövlətinin süqutundan sonra Azərbaycan torpaqlarının parçalanması başlayır. Ayrı-ayrı ərazilərdə xanlıqlar yaranır. Belə bir dövrdə şimaldan yeni bir təhlükə yaranmağa başlayır. Rusiya öz ərazilərini genişləndirməyi, imperiya yaratmaq niyyətini büruzə verir. I Pyotrun hakimiyyətə gəlişi ilə Rusiyanın həyatında yeni dövr başlayır. Qafqaza, xüsusən də Azərbaycana maraq çoxalır. 1722-ci ilin yaz-payız aylarında I Pyotr Xəzəryanı vilayətlərə yürüş edir. Qoşunlar Dərbəndə daxil olur, 1723-cü ilin iyulunda isə Bakı qalası mühasirəyə alınaraq güclü həmlələrdən sonra təslim olur.

Azərbaycan xanlıqlarının birləşdirilməsi, torpaqların yadellilərdən müdafiəsi işində qubalı Fətəli xanın (1758-1789) o dövrdə göstərdiyi fəaliyyət diqqəti cəlb edir. Fətəli xan bu məqsədə çatmaq üçün hətta başqa bir dövlətin köməyindən istifadə etməyi və bəlkə onunla birləşməyi də istisna etmirdi. Bu isə bəzi xanlıqların xoşuna gəlmirdi. Fətəli xan isə belə bir hadisəyə hərbi-siyasi cəhətdən yanaşır və onu müsbət qiymətləndirirdi. O, öz məqsədinə çatmaq üçün birləşmiş Azərbaycan - Dağıstan qüvvələri ilə Gilana hücum edir, Ağa Məhəmməd şah Qacarın qoşunlarını məğlub edərək Rəşti alır. Bu əməliyyatda bir neçə Azərbaycan xanlığı da iştirak edirdi. Quba, Dərbənd, Qarabağ, Talış, Bakı, Ərdəbil, Cavad və Şamaxı xanlıqları artıq dərk edirdilər ki, yadelli işğalçılara qarşı mübarizədə yalnız birlik hesabına qələbə qazanmaq olar. Bu zaman Rusiya yenidən baş qaldırır. 1796-cı ildə V.Zubovun komandanlığı altında rus qoşunları Azərbaycana hücum edir və Dərbənd, Bakı, Şamaxı, Gəncə, Salyan və Cavadı tutur. Bundan bərk narahat olan Türkiyə Rusiyaya öz etirazını bildirir və Krımı zəbt edəcəyini bəyan edir. Nəticədə rus qoşunları 1797-ci ilin yazında Azərbaycanı tərk edirlər.

### *XIX əsrin əvvəllərində Azərbaycanın Rusiya və İran arasında bölüşdürülməsi*

XIX əsrin əvvəllərindən başlayaraq Rusiya Azərbaycanın zorakılıqla işğal edilməsi planını həyata keçirməyə başlayır. Qazax və Borçalı qəzası, Car - Balakən torpaqları işğal olunur. Zaqatalaya hücum azərbaycanlılar tərəfindən dəf edilir. Gəncənin müdafiəsi də gərgin keçir. Vətənpərvər Cavad xanın başçılığı altında general Sisianovun qoşunlarına ciddi müqavimət göstərirlər. Yalnız qüvvələr tükəndikdən sonra şəhər işğala məruz qalır.

Azərbaycana maraqlarını gizlətməyən Rusiya və İran arasında münasibətlər kəskinləşməyə başlayır ki, bu da 1804-cü il iyunun 10-da birinci rus-İran müharibəsi ilə nəticələnir.

Gəncədən sonra bu dəfə Sisianovun qoşunları Şirvan üzərinə yeriyir və beləliklə, Şirvan xanlığı da işğal olunur. Vəziyyəti belə görən şuşalı İbrahim xan Qarabağ xanlığının könüllü olaraq Rusiyanın tərkibinə keçməsi barədə 1805-ci il mayın 14-də bu ölkə ilə müqavilə imzalayır. Razılaşmaya görə rusların 500 nəfərlik hərbi qüvvəsi Şuşa qalasına daxil olur. Bununla kifayətlənməyən Rusiya 1813-cü il yanvarın 1-də Lənkəran qalasına hücum edərək onu da ələ keçirir. Həmin il oktyabrın 12-də imzalanan Gülüstan müqaviləsinə əsasən, Azərbaycan torpaqlarının Rusiya və İran arasında bölüşdürülməsinin birinci mərhələsi başa çatır. İranla müqayisədə get-gedə qüdrətlənən Rusiya tədricən Azərbaycanın digər xanlıqlarını da işğal edir. Beləliklə, 1828-ci il fevralın 10-da Rusiya və İran arasında Türkmənçay müqaviləsi imzalanır ki, bu da Araz çayı sərhəd olmaqla Azərbaycanın iki dövlət arasında bölüşdürülməsini başa çatdırır.

Beləliklə, cəmi 2-3 əsr əvvəl Yaxın və Orta Şərqdə böyük ərazilərə malik vahid Azərbaycan dövləti aramsız davam edən işğalçılıq müharibələri nəticəsində torpaqlarını get-gedə itirərək parçalanır və nəhayət, Şimali və Cənubi Azərbaycan şəklində iki dövlət arasında bölüşdürülür. Bir əsrə yaxın davam edən dövr ərzində şimalda güclü ruslaşdırma, cənubda isə farslaşdırma siyasəti həyata keçirilir. Lakin bu, Azərbaycan xalqının müstəqilik və istiqlaliyyət arzusunu qəlbindən çıxara bilmir. XX əsrin əvvəllərində Rusiyada baş verən ictimai-siyasi hadisələr və xalqımızın vətənpərvər oğullarının səyi nəticəsində 1918-ci il mayın 28-də Azərbaycan öz siyasi müstəqilliyini dünyaya bəyan edir. Lakin cəmi 23 aydan sonra bu müstəqilliyə Sovet Rusiyası tərəfindən son qoyulur. Nəhayət, 80-ci illərin sonu, 90-cı illərin əvvəllərində başlanan milli azadlıq hərəkatı xalqımızı yenə istiqlaliyyət yoluna çıxarır və 1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi ilə nəticələnir.

Respublikamız XXI əsrə gündən-günə qüdrətlənən, öz müstəqilliyini qorumağa qadir bir dövlət kimi qədəm qoymuş və bu yolda uğurla irəliləyir. Doğrudur, müstəqilliyimizin ilk illərində torpaqlarımızın 20 faizi mənfur qonşu Ermənistan tərəfindən işğala məruz qalıb. Lakin bu gün regionun aparıcı beynəlxalq subyektlərindən birinə çevrilmiş Azərbaycanda uğurlu iqtisadi, daxili və xarici siyasətin aparılması, ordumuzun gücləndirilməsi və ölkəmizin müdafiə qüdrətinin daha da möhkəmləndirilməsi imkan verəcəkdir ki, işğal edilmiş ərazilərimiz erməni qəsbkarlarından tezliklə və qeyd-şərtsiz azad edilsin.

**Müdafiə Nazirliyi
Mənəvi-Psixoloji
Hazırlıq və İctimaiyyətlə
Əlaqələr İdarəsi**

## Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

## İdman

### Boksçumuz Polşada xüsusi mükafata layiq görülüb




Polşanın Qlivitse şəhərində qadın boksçular arasında keçirilən beynəlxalq turnirə yekun vurulub. Boks Federasiyasından apa-sport.az saytına verilən məlumata görə, 100-dək idmançının çıxış etdiyi yarışda millimizin üzvü, 54 kq çəki dərəcəsində mübarizə aparan Anna Əlimərdanova 1-ci yerə layiq görülüb. O, finalda çexiyalı Lenka Kardovanı 3:0 hesabı ilə məğlub edib.

Əlimərdanova həm də turnirin ən texnikalı boksçusu üçün ayrılmış xüsusi mükafata layiq görülüb.

### Millimiz böyük hesabla qələbə qazandı



Çimərlik futbolu üzrə Azərbaycan milli komandası İtaliyanın Jesolo şəhərində təşkil olunmuş dünya çempionatının seçmə oyunlarının ikinci mərhələsində növbəti oyununu keçirib.

Fransa yığması ilə qarşılaşan millimiz 3:1 hesabı ilə qələbə qazanıb. Oyunda komandamızın heyətində Sabir Allahquliyev, Asif Zeynalov və Hikmət Bağırov hərəyə bir dəfə fərqləniblər.

Bununla da Azərbaycan millisi dünya çempionatını 13-cü pillədə başa vurub.

### Böyüklər arasında güləş üzrə dünya çempionatı başa çatıb



Çempionatın son günündə keçirilən yunan-Roma güləşi yarışlarında bürünc medala sahib olan güləşçimiz Rəsul Çunayev həlledici görüşdə erməni rəqibini 23 saniyə ərzində tam üstünlüklə məğlub edib və qələbəsini özünəməxsus qeyd edib.

Yarış haqqında təəssüratlarını bölüşən Rəsul Çunayev bir əsgər kimi, erməni rəqibini məğlub etməli olduğunu bildirib: "Bu bizim ilk görüşümüz deyildi. Bundan əvvəl Tehranda keçirilən Dünya Kuboku yarışlarında qarşılaşmışdıq və mən 9:0 hesabı ilə qalib gəlmişdim. Onda əsgər deyildim. İndi bir əsgər kimi, erməni rəqibimi məğlub etməliydim. Bura çempionluq üçün gəlmişdim. Ancaq bəzi məqamlar buna mane oldu.Qızıl Qran-pri beynəlxalq turnirinin final mərhələsindən sonra hərbi xidmətə çağırıldım. Buna görə də dünya çempionatına bir həftə qalmış məşqlərə qoşula bildim. Burada ikinci görüşdən sonra tam bərpa ola bilmədim, türk idmançı ilə görüşə vaxtından əvvəl çağırdılar, ona görə də məğlub oldum. Avropa çempionatında finalda, burda isə, yarımfinalda uduzdum. Daha çox çalışmalıyam ki, gələn il dünya çempionu olum".

### Azərbaycan qrossmeysteri bürünc mükafata layiq görülüb




Azərbaycan qrossmeysteri Azər Mirzəyev Tehranda başa çatmış "ECO Chess Cup - 2014" beynəlxalq şahmat turnirində üçüncü yeri tutub.

AzərTAc xəbər verir ki, Azərbaycan nümayəndəsi 9 mümkün xaldan 6,5 xal toplayıb. Turnirin qalibi 7 xal toplamış iranlı Qayem Maqami Ehsam olub. Gümüş mükafata isə Özbəkistandan olan qrossmeyster Marat Cumayev layiq görülüb.

"ECO Chess Cup" - İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin nümayəndələri üçün keçirilən şahmat turniridir. Dairəvi turnirdə 10 ölkənin, o cümlədən Azərbaycan, İran, Qazaxıstan, Tacikistan, Qırğızıstan, Pakistan, Türkmənistan və Əfqanıstan idmançıları iştirak ediblər.

**Hazırladı:
Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 291
Nüsxə 4570